# Yüksələn bayraq oldun...

**Cahanşümul Qələbəmizlə dünyaya səs salan 44 günlük Vətən müharibəsi zamanı misilsiz qəhrəmanlıq və şücaət göstərməklə Şəhidlik zirvəsinə yüksəlmiş daha bir həmyerlim Cavid Mərdan oğlu Kərimovdur.**

Cavid 23 fevral 1999-cu ildə axar-baxarlı Əlican çayının ləpədöyənində qərar tutmuş Aşağı Bucaq kəndində doğulub. Qayğısız uşaqlıq və yarımçıq gənclik illəri kənddə keçən Cavid Xaldan kənd kompleks tam orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılanadək müxtəlif peşə-sənətə sahiblənmişdi. Kənddə həmişə yaşca özündən böyüklərlə oturub-durar, dostluq edər, hamıya qarşı mehribanlığı və əlindən gələn yaxşılığı göstərməklə fərqlənərdi. Suvaqçı, tənəkəçi, bənna kimi gözəl əl qabiliyyəti vardı. Onun sənətkar əllərinin izi, qəlbinin hərarəti işlətdiyi əmək alətlərinin, həyətlərində tikdiyi, qurduğu, dəmirdən hazırladığı məişət əşyalarının, mişar daşı ilə hördüyü barıların üzərində qalmaqdadır.

Mərdan kişi ilə Alidə xanım Cavidin vətənpərvərliyindən də sonsuz qürur hissi ilə danışırlar. Xüsusilə həqiqi hərbi xidmətini başa vurub qayıtdıqdan sonra tamamilə dəyişdiyini, çox qayğılı göründüyünü dedilər. Bakı şəhərində mühafizəçi kimi işə düzəlsə də könüllü olaraq yenidən Milli Ordumuzun sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmağı üstün tutdu. Hərbi hissədə təcrübəli və peşəkar döyüşçü kimi hücum batalyonunun tərkibində Vətənə xidmətini davam etdirdi.

Müharibə başlanandan cəmi 4 gün keçmiş - oktyabrın 1-də 21 yaşında ikən Cavid Vətənə sevgisini sübut etmək üçün cəbhəyə yollanıb. Düşmən əsarətində qalan doğma torpaqlarımızın azadlığı uğrunda çarpışaraq, Ballıqaya ətrafında gedən döyüşlərə atılaraq, düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv edib və qəhrəmanlıqla həlak olub.

Cavidin mübarək nəşi Yevlaxdakı Şəhidlər xiyabanında torpağa tapşırıldı. Pandemiya dövrü olduğu üçün, qaydalara uyğun olaraq, karantin rejimi gözlənilməklə şəhər icra hakimiyyəti rəhbərliyinin, dövlət rəsmilərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə Cavid də ana qədər sevdiyi müqəddəs Vətənin qucağına sığındı...



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə Kərimov Cavid Mərdan oğlu ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Söhbətimiz zamanı cümlələrinin əvvəlində və axırında "Təki Vətən sağ olsun!" ifadəsini işlədən Mərdan kişi və Alidə xanım Azərbaycan xalqına, böyük Türk Dünyasına başucalığı gətirən cənab İlham Əliyevə şəhid ailələrinə, qazi və muharibə veteranlarına göstərdiyi yüksək diqqət və qayğıya görə qəzet vasitəsilə dərin minnətdarlıqlarını çatdırmağı xahiş etdilər. Onu da dedilər ki, rayon rəhbərliyi, yerli özünüidarəetmə orqanlarının təmsilçiləri, Milli Məclisin deputatları Əli Hüseynli və İlham Məmmədov da müntəzəm olaraq biz şəhid ailələri ilə maraqlanır, köməkliyini əsirgəmirlər.

***Əminə YUSİFQIZI,***
***Əməkdar jurnalist***

Xalq qəzeti.- 2025.- 23 fevral (№ 41).- S.9.